2021

# AZƏRBAYCAN ÜZRƏ DƏMİRYOLU DAŞIMALARININ STATİSTİK MƏLUMATLARI



ALLIANCE LOGISTICS

# MÜNDƏRİCAT


2021-Cİ İL ÜÇÜN DAŞIMALARIN ÜMUMİ HƏCMİ…..........................................3

DƏMİRYOLU DAŞIMALARININ TARİXİ DİNAMİKASI (2008-2021)................4

DƏMİRYOLU VƏ KONTEYNER DAŞIMALARINDA

ƏSAS TRENDLƏR (2017-2021)…...........................................................................5

TRANZİT REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ..........................6

ŞƏRQ-QƏRB DƏHLİZİ ÜZRƏ YÜKDAŞIMALARIN HƏCMİ.............................7

İDXAL REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ..............................8

İXRAC REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ..............................9

NƏTİCƏLƏR…...........................................................................................................10

# 2021-Cİ İL ÜÇÜN DAŞIMALARIN ÜMUMİ HƏCMİ

2021-ci ildə ADY vasitəsilə daşınan yüklərin ümumi tonajı 15.1 mln ton təşkil edib. Rejimlər üzrə daşıma həcmi reytinqinə tranzit daşımaları başçılıq edir - 4.6 ton (30%), idxal daşımaları ikinci yerdədir - 4.1 ton (27%), növbəti pillələri ixrac və daxili daşımalar tutur, hərəsi 3.4 mln ton (22%) və 3 mln ton (20%) nisbəti ilə.

2021-ci ildə ADY ilə 69,5 min TEU konteyner daşınıb ki, bunun da 74%-i dolu, 26%-i boş konteynerlərdir. 2020-2021-ci illər üçün aparılan müqayisəli təhlil nəticəsində məlum olub ki, dolu konteynerlərin sayı 8% artıb, boş olanlar isə 14% azalıb.

Qrafik 1. ADY daşımaların 2021-ci il üçün ümumi həcmi (mln.ton)




Qrafik 2. Konteyner daşımalarının 2021-ci il üçün sayı (min TEU)



# DƏMİRYOLU DAŞIMALARININ TARİXİ DİNAMİKASI (2008-2021)

2008-2021-ci illər üzrə dəmiryolu daşımaların dinamikasının təhlili əsasında aşağıdakı nəticələrə gəlmək olar. Ümumilikdə 2010-2013 illər ADY üzrə yükdaşımalarda sabit dövr kimi səciyyələndirilə bilər. Bu, iqtisadi sahədə nisbi sabitlikdən və dəmiryolu xidmətlərinə yüksək tələbatın olduğundan xəbər verir. 2014-cü ildən etibarən yükdaşımaların ümumi həcmində daimi azalma müşahidə olunaraq, 2018-ci ildə öz minimumuna çatır. Sonrakı üç illik intervalda daşımaların ümumi tonajında cüzi artım qeyd edilir. Eyni zamanda, 2008-2013-cü illərin yüksək göstəriciləri ilə müqayisədə fərq kifayət qədər böyük olaraq qalır.

Qrafik 3. Dəmir yolu daşımalarının dinamikası (2008-2021) (mln.ton)



# DƏMİRYOLU VƏ KONTEYNER DAŞIMALARINDA ƏSAS TRENDLƏR (2017-2021)

Son 5 ildə dəmiryolu daşımaları qlobal və regional iqtisadiyyatda gedən mürəkkəb prosesləri aydın şəkildə əks etdirən çoxistiqamətli dinamika nümayiş etdirib. Yükdaşımalarda potensial artımın əsas mənbəyi tranzitdir.

Qrafik 4. Son 5 ildə dəmiryolu daşımalarının əsas cari göstəriciləri və trendləri (mln.ton)




Mənbə:
Alliance Logistics

Son iki ildə konteyner daşımalarının həcmində sabitlik yaranıb, həm dolu, həm də boş konteynerlərin sayında kəskin dəyişiklik qeydə alınmayıb.

Qrafik 5. Son 5 ildə konteyner daşımalarının dinamikası (min TEU)




Mənbə:
Alliance Logistics

# TRANZİT REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ

2018-ci ildə neft yüklərinin payı kəskin azalaraq 1.2 mln ton ilə minimum göstəriciyə çatıb ki, bu da bütün daşınan yüklərin həcminin 39%-ni təşkil edib. Bundan əlavə, neft sektorunun göstəricilərində nisbi durğunluq müşahidə olunur. 2021-ci ildə tranzitlə 4.6 mln ton ümumi yük daşınıb ki, bunun da 32% neft məhsulları təşkil edib. Daşınan yüklərin çeşidinin və tranzit marşrutlarının coğrafiyasının genişləndirilməsi nəqliyyat axınlarının davamlı artımını təmin etmək və neft məhsullarından asılılığı azaltmaq üçün həyati əhəmiyyət kəsb edir. Başqa bir problem konteynerləşdirmədən istifadə edilməməsidir.

Qrafik 6. ADY tərəfindən son 5 ildə tranzit rejimində daşınan yüklərin müqayisəsi (mln.ton)




Qrafik 7. Tranzit rejimində son 5 ildə konteyner daşımalarının dinamikası (min TEU)



# ŞƏRQ-QƏRB DƏHLİZİ İLƏ YÜKDAŞIMALARIN HƏCMİ

2021-ci ildə, əsasən Şərq-Qərb dəhlizi ilə, tranzit daşımaların həcmində əhəmiyyətli artım olub. Çindən tranzit daşımaların iki dəfədən çox artması (111%) xüsusilə nəzərə çarpır. Mərkəzi Asiya ölkələrindən tranzit həcmləri 40% artıb.

Qrafik 8. Mərkəzi Asiyadan tranzit daşımaları.




Mənbə:
Alliance Logistics

Qrafik 9. Çindən tranzit daşımaları




Mənbə:
Alliance Logistics

# İDXAL REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ

2020-ci ildə idxal daşımaların axını Covid-19 pandemiyası səbəbindən enməyə başlamış, 2021-ci ildə 4,1 mln ton ilə minimal göstəricisinə çatmışdır. Bu kəskin tənəzzül, artan çeviklik və dəyişən bazar şəraitinə uyğunlaşma da daxil olmaqla, logistika və yüklərin nəqli sahəsində yeni strategiyaların axtarışını stimullaşdırıb. Konteyner daşımalarına gəldikdə, dolu və boş konteynerlərin sayında stabil artımı qeyd etmək lazımdır, yalnız 2021-ci ildə 2 min TEU boş və 15,5 min TEU dolu konteynerə qədər bir qədər azalma qeydə alınıb.

Qrafik 10. İdxal rejimində yükdaşımanın ümumi həcmi




Mənbə:
Alliance Logistics

# İXRAC REJİMİNDƏ YÜKDAŞIMALARININ ÜMUMİ HƏCMİ

Nəzərdən keçirilən dövr ərzində ixrac daşımalarında davamlı artım olduğunu qeyd etmək lazımdır. 2021-ci ilə qədər konteyner daşımalarında nəzərəçarpan azalma olsa da, bu azalmanın boş konteyner həcmlərində baş verməsini xüsusi vurqulamaq lazımdır. Konteynerləşdirmə çatdırılma müddətini azalda, yükün təhlükəsizlik və daşıma xərclərini azalda bilər, ona görə də konteynerləşdirmənin inkişafı müasir logistika infrastrukturu üçün prioritet olaraq qalır.

Qrafik 11. İxrac rejimində yükdaşımanın ümumi həcmi




Mənbə:
Alliance Logistics

# NƏTİCƏLƏR

Ümumilikdə tranzit 2021-ci il üzrə daşıma rejimləri reytinqində ən yüksək pilləni tutaraq, ölkədə potensial yükdaşıma artımın əsas hərəkətverici qüvvəsi hesab edilir. Konteyner daşımalarının sabit artımına baxmayaraq, əlverişsiz qiymət siyasəti və texniki şərtlərin olmaması səbəbindən hazırda konteynerləşdirmə səviyyəsi Azərbaycanda dəmir yolu logistikasının imkanlarına uyğun deyil. Bu nəticələr xüsusilə beynəlxalq logistika kontekstində yüklərin səmərəli və rəqabətədavamlı daşınmasını təmin etmək üçün infrastrukturun daha da inkişaf etdirilməsi və müasir texnologiyaların tətbiqinin zəruriliyini vurğulayır.